Tarix və onun problemləri, №1 2010

AYTƏN MƏHƏRRƏMOVA
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin doktorantı*

# AZƏRBAYCAN RESPUBLİKASI NEFT-QAZ SƏNAYESİNİN İNKİŞAFININ TARİXŞÜNASLIĞINA DAİR

Azərbaycan qədim zamanlardan bəri öz nefti ilə məşhurdur. Hələ eramızdan əvvəl yerdən qalxan təbii qaza və neftə görə bu torpağı "odlar diyarı" adlandırırdılar. Lakin ölkədə əsil neft bumu XIX əsrin sonu – XX əsrin əvvəllərinə təsadüf edir. Həmin dövrdə Rotşild və Nobel qardaşları, eləcə də Rusiya imperiyasının neft sənayeçiləri Bakı nefti sayəsində varlanıb məşhurlaşdılar. Sovet hakimiyyəti illərində "qara qızıl" yataqlarının işlənməsi və hasilatı məsələlərinə işğalçı Rusiyanın müvafiq orqanları rəhbərlik edirdi. Yalnız 1990-cı illərin əvvəllərində ölkə müstəqillik qazandıqdan sonra Azərbaycan Respublikası öz təbii ehtiyatlarına sahib çıxa bildi.

Müstəqillik tariximizin ilk illərində neft və qaz hasilatının artımına ölkədə qarşıdakı iqtisadi və sosial çətinliklərin aradan qaldırılmasının əsas vasitələrdən biri kimi baxılırdı. Belə bir şəraitdə maliyyə vəsaitinin məhdudluğu xarici şirkətlərin və investorların ölkə iqtisadiyyatının maliyyələşdirilməsinə cəlb olunmasını strateji zərurətə çevirmişdi. Lakin Ermənistan Respublikasının Vətənimizə qarşı hərbi təcavüzü ilə yanaşı, ölkəni bürümüş daxili ziddiyyətlər, səbatsızlıq, özbaşınalıq Qərbin neft şirkətlərini buraya gəlməkdən çəkindirirdi. Eyni zamanda aparılan danışıqlarda həm də Azərbaycan Respublikasının iqtisadi maraqları tam təmin olunmurdu.

Azərbaycan neftinə maraq göstərən xarici neft şirkətləri ilə hələ 80-ci illərin axırlarından aparılan danışıqlar artıq 1993-cü ilin yazında başa çatmaq üzrə idi. Amma Ermənistan Respublikasının Rusiya Federasiyası qoşunlarının birbaşa iştirakı ilə ölkə üzərinə təkrar hücuma başlaması neftlə bağlı danışıqları səmərəsiz hala gətirdi və xarici investorların respublikamıza qarşı iddialarının sayı artdı. Neft strategiyası ilə bağlı ölkənin mənafeyi təhlükə altına düşdü. Təcrübəsiz və iddialı ölkə başçıları çıxış yolları aramağa başladılar. Bu məqamda 1993-cü ilin yazında Gəncədə Surət Hüseynovun başçılıq etdiyi silahlı dəstə üsyan etdi və hadisələri nəzarətə götürə bilməyən əlacsız iqtidar ölkədə vətəndaş savaşının qarşısını almaq məqsədilə Ümummilli lider Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etmək məcburiyyətində qaldı.

Yalnız xalqın iradəsi, çağırışı və təkidi ilə Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı Azərbaycanın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin başlanğıcını qoydu. Neft müqaviləsi üzrə müzakirələrə, danışıqlara faktiki olaraq yenidən başlanıldı və nəhayət, Azərbaycanın maraqlarına cavab verən yeni müqavilə şərtləri əldə edildi.

1994-cü il sentyabrın 20-də Bakıda "Gülüstan" sarayında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın bir neçə ölkəsinin (ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə petrolları, Penzoyl, İtoçu, Remko, Delta) arasında Xəzər dənizinin Azərbaycan bölməsindəki "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında fəaliyyət müddəti 30 il olan müqavilənin imzalanması ilə başlanmışdır [11].

"Əsrin müqaviləsi" adlandırılan bu saziş, indi bütün dünyada tanınmış bu müqavilənin imzalanması və onun gerçəkləşməsi, müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən və böyük siyasətçi Heydər Əliyev tərəfindən işlənilib hazır-

lanmış neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Sonrakı dövrdə Ümummilli lider Heydər Əliyevin bilavasitə iştirakı ilə Bakıda, həmçinin dünyanın ən böyük paytaxtları – Vaşinqton, Moskva, London və Parisin möhtəşəm saraylarında xarici ölkələrin neft şirkətləri ilə 20-dən artıq neft sazişi imzalanmışdır. Həmin sazişlərin həyata keçirilməsində dünyanın 15-dən artıq ölkəsinin 30-dan artıq neft şirkəti iştirak edir. Bu sazişlərdə Azərbaycanın neft-qaz sənayesinə təxminən 60 milyard ABŞ dolları həcmində sərmayə qoyulması nəzərdə tutulmuşdur. Proqnozlara əsasən, 20 il ərzində neftin və qazın hasilatı ilə ixracından əldə olunacaq ümumi gəlir 200 milyard ABŞ dolları civarındadır.

1999-cu il dekabrın 29-da ümummilli lider Heydər Əliyev "Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında" (ARDNF) fərman imzalamışdır.

Neft Fondunun yaradılmasının əsas məqsədini Azərbaycan xalqının nəsilləri arasında ədalətli bölüşdürülməsinin təmin olunması təşkil edir. Fondun qarşısında qoyulan əsas məqsədlərdən biri neft gəlirlərinin gələcək nəsillər üçün toplanaraq artırılmasıdırsa, digəri, bu gəlirlərdən ölkəmizin cari sosial ehtiyaclarını, iqtisadi tərəqqi və inkişaf tələblərini nəzərə almaqla, bugünkü nəsillər üçün istifadə edilməsidir.

Azərbaycan Respublikası Dövlət Neft Fondu öz fəaliyyətinə 2001-ci ildə başlamışdır. Neftdən əldə olunan bütün pullar ("neft dolları") məhz burada toplanır. Fondun əsas məqsədi təbii sərvətlərin indiki və gələcək nəsillər arasında ədalətlə bölüşdürülməsi olsa da, bir mühüm amil isə makroiqtisadi sabitliyin təmin olunması və yerli pul bazarının getdikcə artan xarici valyuta axınından qorunmasıdır. Belə bir fondun yaradılması irəli doğru addım idi. Belə ki, iqtisadi baxımdan karbohidrogenlərin satışından əldə olunan vəsaitləri ayrıca saxlamaq, bu pulları büdcənin gəlir hissəsinə aid etməkdən daha sərfəlidir. Belə təcrübə Norveç, Rusiya, Tailand, Qazaxıstan və bir sıra başqa ölkələrdə də mövcuddur.

Ümummilli lider Heydər Əliyevin neft strategiyasının əsas istiqamətlərindən biri hasil olunan neftin dünya bazarına nəqlidir. Bu sahədə ölkə mənafelərinin uzunmüddətli şəkildə qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədi ilə strateji əhəmiyyətli Bakı-Supsa və Bakı-Tiflis-Ceyhan əsas ixrac boru kəməri layihəsinin gerçəkləşməsi üçün gərgin işlər həyata keçirilmiş, aparılan danışıqlar uğurla nəticələnmişdir. Bu gün artıq Azərbaycan neftinin xaricə nəqlinin diversifikasiyası tam təmin olunmuş və ölkəmiz bu sahədə Rusiyadan asılılıqdan xilas olmuşdur.

Eyni sözləri Bakı-Tiflis-Ərzurum qaz kəməri, Xəzərin faktiki olaraq sektorlara bölünməsi və Bakı-Tiflis-Qars dəmiryolu xəttinin çəkilişinə də aid etmək olar.

Azərbaycanın, eləcə də xarici ölkələrin tarixşünaslığında haqqında danışılan məsələlər barədə Heydər Əliyevin uzaqgörənliyini xüsusi qeyd edilməklə aparılan araşdırmalar kifayət qədərdir.

Mövzunun öyrənilməsi üçün ilkin mənbə kimi Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ARDNŞ və ARDNF-in yaradılması, onların iş prinsipləri və s. barədə verdikləri fərmanları, sərəncamları, "Əsrin müqaviləsi" ilə bağlı imzaladıqları sənədlər, nitqləri və çıxışları, müddəaları və s. dəyərli və istiqamətverici mənbədir [6; 10; 2; 3].

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hələ 2003-cü ildə Moskvada nəşr etdirdiyi 712 səhifəlik "Azərbaycanın Xəzər nefti" [12] adlı elmi-tədqiqat əsəri bizim üçün mühüm istiqamətverici mənbə rolunu oynamışdır. 5 fəsildən ibarət olan bu tədqiqat əsərinin «Xəzər nefti. Siyasi tarix. İqtisadi və geostrateji aspekt» adlanan I fəslinin I hissəsi – «İnkişafın tarixi və iqtisadi mərhələləri» – bütövlükdə Azərbaycan neftinin müstəqilliyə qədərki tarixinə həsr olunub və əsərin 32-135-ci sə-

hifələrini əhatə edir. Həmin fəslin «Müstəqil Azərbaycanın nefti» adlı II hissəsi əsərin 137-258-ci səhifələrini əhatə etməklə 1990-cı ildən sonrakı dövrə həsr olunub və ayrı-ayrı neft strukturlarına, yataqlarına, onlardan hasil edilən neftin həcminə, kondensat qarışıqlarına, xarici şirkətlərin neft çıxarmağa cəlb olunmasına dair məlumatlarla, ilk dəfə nəşr olunan rəsmi arxiv sənədləri ilə zəngindir. Burada müstəqillik illərində aparılmış qazma işlərinə, hasil edilən neft və qaz həcminə dair ümumiləşdirilmiş çox dəyərli cədvəllər, ayrı-ayrı yataqlar, «Əsrin müqaviləsi»nə gedən yol və onun imzalanması, kontraktın pay bölgüsünün razılaşdırılması, hasil olunan neftin qərbə nəqli yollarının müəyyənləşdirilməsi və s. məsələlər işıqlandırılmışdır.

Əsərin II fəsli Xəzərin hüquqi statusuna həsr olunub. 259-366-cı səhifələri əhatə edən bu fəsildə Rusiya və İranın Xəzərin delimitasiya məsələsinə fərqli yanaşmaları, onu göl adlandırmaları və ya kondominium arqumentləri analiz olunur, Azərbaycan Respublikasının Xəzərlə bağlı «dəniz variantı» yaxud da bölgünün sektoral prinsipi fikri irəli sürülür və onun fikrinin beynəlxalq dəniz hüququ normalarına uyğunluğu vurğulanır [12, s. 272]. Bu zaman Azərbaycan öz fikrini BMT-nin 1982-ci il Dəniz hüququ üzrə Konvensiyası ilə əsaslandırır [12, s. 272]. Maraqlıdır ki, Xəzərin sektoral bölgüsü Azərbaycan Respublikasının 1995-ci ildə referendum yolu ilə qəbul etdiyi Konstitusiyasında da öz əksini tapıb. Konstitusiyasının «Dövlətin əsasları» adlanan II fəslinin 11-ci «Ərazi» maddəsinin II yarımbəndində deyilir: «Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir» [1]. Burada yenə də həmin ifadəni – Xəzərin ehtiyat üçün həm dəniz, həm də göl olması ifadəsini Konstitusiyaya daxil etmiş ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi göz önünə gəlir.

Müəllif göstərir ki, Azərbaycanın mövqeyi Qazaxıstan tərəfindən bütünlüklə dəstəklənmişdir. Türkmənistanla İran isə Xəzəri sahil sularına hüququn məhdudlaşdırıldığı qapalı göl kimi qəbul edirlər və əslində Türkmənistan Azərbaycanın «Kəpəz» yatağına iddia edir [12, s. 273]. Əgər Türkmənistanın Azərbaycana aid bir neçə yatağa iddiasını nəzərə almasaq, faktiki olaraq o da Rusiya ilə bərabər, fərqli də olsa, Xəzərin sektoral bölünmə prisnipini qəbul edir.

Qəti istisna təşkil edən İrandır. SSRİ dövründə səsi çıxmayan İran indi Xəzərin 1/5-nə iddia edir, yəni onun bərabər şəkildə 5 dövlət arasında bölüşdürülməsini istəyir ki, bu da qeyri-mümkündür.

İ.Əliyev əsərində ABŞ-ın, Rusiya Federasiyasının, İranın, Qazaxıstanın, Türkmənistanın Xəzərlə bağlı mövqelərini müqayisəli şəkildə şərh edir [12, s. 263-366].

İ.Əliyevin əsərinin III fəsli «Xəzəryanı regionda geostrateji aspektlər» adlanır. Müəllif bu fəsildə qərb ölkələrinin neft maraqları, Xəzər neft layihələrinin realizasiyasında ABŞ-ın geopolitoloji maraqlarını, onun strateji öhdəliklərini, ABŞ-ın Xəzər siyasətinin xüsusiyyətlərini, Xəzər regionunda Amerika strategiyasının həyata keçirilməsini şərh edir [12, s. 367-420].

Müəllif əsərin «Xəzərin enerji resurslarının nəqli» adlanan IV fəslini 5 hissəyə bölüb və bu fəsildə Xəzər nefti: dünya bazarlarına çıxışın infrastrukturu, Xəzər neft kəməri: inkişaf problemləri, Neft kəmərlərinin rəqabəti: Şimal və Qərb marşrutları, əsas ixrac boru kəməri; Transxəzər qaz kəməri və «Mavi axın»: rəqabət və ya dinc yanaşı yaşama məsələlərini işıqlandırır. Bu fəsil kitabın daha geniş hissəsi olub, 422-526-cı səhifələri əhatə edir [12, s. 422-526].

Əsərin sonuncu – V fəsli «Xəzər nefti və ətraf mühit» adlanır [12, s. 527-548]. Adından göründüyü kimi burada ətraf mühitin çirkləndirilməsinin qarşısının alınması məsələlərindən danışılır.

Bunlardan əlavə müəllif kitaba çox dəyərli əlavələr – Xəzər nefti ilə bağlı Azərbaycan Respublikasının qanunundan müvafiq çıxarışlar, İranla məsələlərin obyektiv həlli baxımından çox əhəmiyyətli olan «Rəşt traktatı»nı tarixi mənbə kimi, eləcə də beynəlxalq sənəd kimi «Kontinental şelf haqqında konvensiya»nı daxil etmişdir [12, s. 608-697].

Xəzərin statusu ilə bağlı diqqəti cəlb edən əsərlərdən biri də S.Həsənovun «Dövlətlərarası münasibətlərdə Xəzərin statusu məsələsi» monoqrafiyasıdır [5]. Bu əsər Azərbaycan Respublikasının xarici siyasət strategiyasında, eləcə də regional və beynəlxalq siyasət arenasında aktual məsələyə çevrilən Xəzərin statusu probleminin tədqiqinə həsr olunmuşdur. Azərbaycanın həyata keçirdiyi neft diplomatiyası və bu əsasda dünya ölkələri ilə sıx əməkdaşlığın əhəmiyyətinə nəzər salınmışdır. Ölkəmizin bu günü və gələcəyinin mühüm faktoru olan Xəzərin statusu məsələsində həyata keçirilmiş məqsədyönlü siyasət diplomatiya tariximizin xüsusi mərhələsi kimi elmi araşdırmaya cəlb edilmişdir.

Xəzəryanı ölkələrin milli maraqları və bu milli maraqlardan doğan mürəkkəb proseslər regionun qlobal siyasəti kimi təhlil edilmişdir.

Əsərdə konkret olaraq «Əsrin müqaviləsi» - beynəlxalq aləmə inteqrasiyanın tarixi-siyasi təhlili; Xəzər neftinin istismarına dair beynəlxalq müqavilələr; Xəzərin statusu məsələsinin meydana çıxması və sahilyanı ölkələrin mövqeyi; Azərbaycanın xarici siyasətində və qonşu dövlətlərlə münasibətlər sistemində Xəzərin statusu məsələsi, Xəzərin hüquqi və beynəlxalq hüquqi statusu; Xəzərin statusu probleminin həlli beynəlxalq əhəmiyyətli məsələ kimi problemlər araşdırılmışdır.

İ.Əliyevin A.Muradverdiyevlə birgə yazdıqları çoxcildli «Azərbaycan nefti dünya siyasətində» adlı əsərin 1997-ci ildə «Azərbaycan» nəşriyyatında çapdan çıxmış IV kitabını da qeyd etmək istərdik [4].

R.A.Qurbanovun 2005-ci ildə Moskvada müdafiə etdiyi «Neft və qaz sənayesinə xarici investisiyaların hüquqi tənzimlənilməsi» [15] adlı 6 fəsildən ibarət doktorluq dissertasiyasında əsasən MDB ölkələrinin neft sənayesinin hüquqi tənzimlənilməsi, bu məsələdə neft-qaz sferasında xarici investisiyaların tənzimlənilməsinin xarici ölkələrdəki təcrübələri araşdırılır, yolüstü Azərbaycan nefti və qazının investisiyalaşdırılması ilə bağlı hüquqi məsələlər də işıqlandırılır.

Azərbaycan Respublikası Milli Məclisi tərəfindən neft strategiyasının uğurla həyata keçirilməsi üçün bir sıra tənzimləyici dövlət sənədləri və qanunları da qəbul olunmuşdur və mövzunun öyrənilməsi baxımından onların əhəmiyyəti böyükdür.

A.Ş.Muradverdiyevin 2001-ci ildə Moskvada müdafiə etdiyi «Azərbaycan neft kompleksinin səmərəli inkişafının iqtisadi əsaslandırılması» [16] adlı 5 fəsildən ibarət olan iqtisad elmləri doktoru dissertasiyasında Azərbaycanın neft sənayesinin iqtisadi potensialının dəyərləndirilməsi, Azərbaycanın neft kompleksinin inkişafının konsepsiyası və metodologiyası, xarici kapitalın iştirakı ilə neft hasilatı müəssisələrinin yaradılmasının təşkilati formaları, neft gəlirlərinin Azərbaycan iqtisadiyyatının digər sahələrinə təkrar investisiyalaşdırılması məsələləri araşdırılır.

C.Tağıyevin 2003-cü ildə müdafiə etdiyi «XX əsrin sonu– XXI əsrin əvvəllərində Azərbaycan nefti və neft kəmərləri» adlı namizədlik dissertasiyası da araşdırdığımız mövzu baxımından mühüm əhəmiyyət kəsb edir [7; 8]. 2 fəsildən ibarət olan dissertasiya işinin «Beynəlxalq enerji böhranı və Azərbaycan nefti: ziddiyyətlər və perspektivlər (XX əsrin sonu– XXI əsrin əvvəlləri) adlanan birinci fəslində Azərbaycanda müstəqil dövlət quruculuğunun ilkin mərhələsində neft siyasəti: cəhdlər və iflas (1991-1993-cü ilin yayı), Azərbaycan neftinin Heydər Əliyev strategiyası: qarşıdurmadan tərəfdaşlığa doğru; «Azərbaycan neftinin nəqli problemi: maraq-

lar və ixrac neft boru kəmərləri» adlanan ikinci fəslində isə «Milli və beynəlxalq maraqlar neft ixracının marşrutlarını müəyyən edir, əsas neft boru ixrac kəməri: Bakı-Tiflis-Ceyhan reallaşır» məsələləri araşdırılır [7].

K.Kərimovun «Azərbaycanın böyük nefti: problemlər və mülahizələr» [14] monoqrafiyasında müasir dövrün bəşəriyyətin yanacaq-enerji xammalına olan tələbatının tam təminatı kimi ən qaynar problemlərindən birinə həsr olunub. Əsərdə Azərbaycanın, o cümlədən Kür-Cənubi-Xəzər bölgəsinin regional əyrisi təkinin neft-qaz potensialının dəyərləndirilməsinə diqqət yetirilir. Bu məsələnin dəqiqləşdirilməsinin neftə, qaza və neft-qaz məhsullarına tələbatı olan ölkələr üçün əhəmiyyət kəsb etdiyi də göstərilir.

Geologiya-mineralogiya elmləri doktoru, professor, Azərbaycan Dövlət mükafatı laureatı Ç.Sultanovun 2008-ci ildə nəşr olunmuş «XXI əsr: neft-qaz strategiyası və siyasət» [19] Əsərində bütövlükdə MDB ölkələrində neft-qaz hasilatından, burada «Holland sindromu»ndan necə yaxa qurtarma məsələlərindən, o cümlədən Azərbaycan neftinin nəqli yollarının müəyyənləşdirilməsindən bəhs olunur.

Bizim üçün əhəmiyyət kəsb edən bir neçə xarici ölkə yazarlarının da fikrinə nəzər yetirməyə ehtiyac duyuruq.

İlk növbədə Norveç Energetika Nazirliyinin sifarişi ilə Norveç Beynəlxalq Münasibətlər İnstitutunun senior professoru Daniel Heradstveit tərəfindən yazılmış "Demokratiya və neft. Azərbaycan məsələsi" [9] əsərini qeyd etmək lazımdır. Azərbaycan tarixinin müxtəlif problemlərinə toxunan müəllif əsərinin VI və VII fəsillərini burada neft hasilatı və sənayesi məsələlərinə həsr etmişdir. VI fəsil «Qərb neft hasilatı sənayesinin kübar qavrayışı» adlanır və burada neft şirkətləri, demokratiya və insan hüquqları; neft şirkətləri və korrupsiya; Norveçin Statoil neft şirkəti məsələləri araşdırılır. «Yaxşı Neft hasilatı sənayesi» adlanan VII fəsildə daha ritorik məsələlər qoyulur – «Prezident Heydər Əliyevlə zarafat etməyi fikirləşməyin»; «əgər Əliyev istəyirsə, kartınızı açmağa məcbur edəcək» və s.

Fikrimizi Rusiyanın mötəbər jurnallarından sayılan "Огонёк"un 1996-cı il tarixli 52-ci sayında Mixail Petrov imzası ilə "Xarici neft şirkətləri Azərbaycanda. Əsrin müqaviləsi: Ambisiyalara qarşı sağlam düşüncəli qənaət" [17] adlı çox maraqlı bir məqalə ilə davam etdirmək istərdik. Məqalədə neft gəlirlərinin şirkətlər arasında bölünmə faizini əks etdirən cədvəl, eləcə də Xəzərin Azərbaycanın "birtərəfli" qaydada tətbiq etdiyi və hər halda dünya ölkələri, o cümlədən Rusiya tərəfindən tanınmış sektorlara bölgüsü xəritəsi verilmişdir. Mühüm əhəmiyyət kəsb edən həmin xəritəni və cədvəli olduğu kimi veririk.

Göründüyü kimi, Ümummilli lider Heydər Əliyevin uzaqgörən neft strategiyasına əsasən Azəri-Günəşli-Çıraqdan hasil edilən neftin gəlirinin 80%-i Azərbaycan Respublikasının payına düşür. Xəzərin sektorlara bölgüsündə də Azərbaycan Respublikasının payı kifayət qədərdir.




| | |
|---|---|
| 75,00 % | Azerbaijan Royalties |
| 05,00 % | SOCAR (ARDNŞ) |
| 04,28 % | BP |
| 04,25 % | Amoco |
| 02,50 % | Lukoil |
| 02,46 % | Pennzoil |
| 02,38 % | Unocal |
| 02,14 % | Statoil |
| 00,61 % | McDermott |
| 00,52 % | Ramco |

| | |
|---|---|
| 00,44 % | Turkish State Oil Co. |
| 00,42 % | Delta-Nimir |

Məqalənin müəllifi yazır: "Bütün başqaları öz iddialarını (ilk növbədə Rusiyanın) formal cəhətdən əsaslandırmaq üçün arqumentlər axtararkən, Azərbaycan Respublikası iş görürdü".

Qeyd etmək lazımdır ki, həmin illərdə Rusiyanın bütün mətbuat vasitələrində Azərbaycan Respublikası ərazilərində neftin və qazın azlığı, onların Rusiyadan kənarda çəkiləcək hər hansı boru kəməri ilə ixracının səmərəsizliyi geniş təbliğ edilirdi. Hətta bəzi məsələlərdə Azərbaycan Respublikasına qarşı birbaşa şantaja əl atılır, onun vətəndaşlarına qarşı viza tətbiq edilir, Rusiyadakı azərbaycanlıların sıxışdırılmasına əl atılır və s. Amma Rusiya geniş imkanlarını belə lüzumsuz şeylərə sərf etdiyi bir vaxtda Ümummilli lider Heydər Əliyev neft konsorsiumu yarada bildi, neftin Gürcüstan və Türkiyə vasitəsilə nəqli barədə tərəfləri razı sala və əməli işə başladığı məqamda Rusiya özünün oyundan kənarda qaldığını başa düşdü. Rusiyanı daha çox qıcıqlandırmamaq məqsədilə Azərbaycan Respublikası Lukoyl şirkətini özünün 30%-lik payının 10%-ə şərik etməklə onu neytrallaşdıra bildi.

"Огонёк" jurnalı yazır ki, "Rusiyanın başı öz daxili işlərinə qarışdığından, "Azərbaycanın böyük nefti" ətrafında baş verən hadisələri çox da diqqətlə izləyə bilməmişdi". Jurnal daha sonra yazır: "... heç kimin ağlına gətirmədiyi bir vaxtda Azərbaycan birtərəfli qaydada beynəlxalq praktikaya "Xəzərin hansısa ölkəsinin sektoru" ifadəsini daxil etdi" [17]. Bu da qeyd olunur ki, Azərbaycan Respublikası Rusiyanın dəfələrlə Xəzərlə bağlı verdiyi layihələri rədd etmişdi. "Огонёк" jurnalı bunu da xüsusi olaraq qeyd edir ki, "belə çox da qərbli şirkətlər olmayan təmsilziliyi keçmiş sovet respublikalarının ərazisində hələ heç bir layihə görməmişdir" [17].

Rusiyanın «"Россия" - ЦентрАзия» internet jurnalında Mixail Gerasimov adlı bir şovinsitin hətta BTC-nin reallaşmasına nisbətən az vaxt qaldığı zamanda – 2004-cü il yanvarın 23-də özünün Azərbaycana qarşı olan düşmən hisslərini gizlədə bilməmiş və «Azərbaycanın neft uydurmaları. Boş boru ilə ... nə axacaq?» [13] adlı məqalə ilə çıxış etmişdir.

Bu məqalə Azərbaycana qarşı düşmənçilik mövqeyinə görə bir çox qalın monoqrafiyaları geridə qoyur. Bu paskvildən bəzi misallar gətirək. Müəllif yazır: «Azərbaycanın neft layihələrinin qaranlıq perspektivi ilə bağlı tamamilə məntiqi sual yaranır: Bakı-Tiflis-Ceyhan neft kəməri nə üçün çəkilir?»

Daha sonra «Bu il Xəzər dənizində Azəri, Çıraq, Günəşli fəaliyyət neft yataqlarında hasilat üzrə əsrin müqaviləsi dedikləri layihənin 10 ili tamam olur. Bu kontrakt imzalananda Azərbaycan rəhbərləri vəd edirdilər ki, 2000-ci ildən başlayaraq respublika qərb şirkətləri ilə birlikdə neft hasilatından çoxmilyardlı mənfəət əldə edəcək. Artıq 2004-cü il gəlir, amma vəd olunan gəlirlər yoxdur ki, yoxdur».

O, daha sonra yazır: «İqtisadi cəhətdən səmərəsiz olan və Xəzər neftinin Avropaya nəqli üçün nəzərdə tutulan Bakı-Tiflis-Ceyhan neft kəmərinə kreditlər ayrıldıqdan sonra Azərbaycanın xarici borcu 2,2 milyard dolları ötmüşdür. Bu məbləğ, nəzərə alsaq ki, Azərbaycanın illik büdcəsi 800 mln.dollardır, onun üçün dəhşətli rəqəmdir. Amma çətin ki, bu borcları ödəmək üçün Xəzər nefti Bakıya bəs etsin».

Əslində məqsədi Azərbaycanı qorxutmaq olan Gerasimov sübut etməyə çalışırdı ki, guya «elə ilk kəşfiyyat qazmalarından sonra ya neftin olmadığı aşkar olunur, ya da onun azlığı üzə çıxır. İstər Amerika, istərsə də digər xarici şirkətlər Bakının neft layihələrini tərk edib gedirlər, beynəlxalq konsorsiumlar öz-özünə dağılır».

Qeyd edək ki, Rusiya mətbuatında və tarixşünaslığında Azərbaycan Respublikası

ilə bağlı belə üzdəniraq yazılar minlərlədir. Eyni münasibəti Rusiya hökuməti tərəfindən də müşahidə etmək mümkündür. Amma real gerçəkliyi nəhayət ki, başa düşüb, Rusiyanın özünün özünü Azərbaycanın «böyük nefti» ilə bağlı oyundan kənarda qoymasını başa düşənlər və bunu Rusiyanın aparıcı mətbuatında yazanlar da var.

Bu baxımdan "Независимая газета"nın 10 noyabr 1999-cu il tarixli sayında Lyudmila Romanova imzası ilə dərc olunmuş "Bakı Moskvaya qalib gəldi. Azərbaycanın "böyük nefti", çox güman ki, Rusiyadan yan keçəcək" [18] məqaləsi diqqəti cəlb edir.

Həmişə rəsmi Bakını rəqəmləri şişirtməkdə və Azərbaycan Respublikası ərazisində kifayət qədər neftin olmamasında günahlandıran, eləcə də mövcud nefti yalnız Rusiya ərazisindən göndərmək haqqına və hüququna malik olmaqla xəbərdar edən rəsmi Moskva və Rusiya mətbuatı, o cümlədən «Независимая газета» həmin mövzuda həqiqətdən uzaq yüzlərlə analitik məqalə dərc etmişdir. Yalnız yuxarıda adı çəkilən məqalə istisna təşkil edir və burada Rusiyanın öz günahı ucbatından qapı dalında qalması etiraf olunur.

Qəzet yazır: «Baş nazirin birinci müavini Nikolay Aksyonenkonun və yanacaq və energetika naziri Viktor Kalyujninin Azərbaycana bayramqabağı səfərləri Bakını neft kəmərinin Türkiyənin Ceyhan limanına çəkilməsi fikrindən daşındırmaq məqsədi güdsə də, görünür bu, Moskva diplomatiyasının siyasi iflası ilə başa çatdı... Belə nəticə Rusiyanın neft dairələrində şoka səbəb oldu» [18]. Müəllif məqaləni onunla yekunlaşdırır ki, «Nikolay Aksyonenkoya hətta keçən ay Azərbaycana qarşı tətbiq edilən viza rejiminin ləğv edilməsi məsələsinin həllinə də səlahiyyət verilməmişdi. Moskva özü özünü danışıqları lazımi istiqamətə yönəltməkdən məhrum etdi» [18].

2007-ci ildə "neft dollarlarının" Azərbaycana axını xeyli artmışdır. Öz növbəsində ARDNF-nin funksiyası da dəyişmişdir: belə ki, yeni layihələr yaranır və dövlət büdcəsinin subsidiyalaşdırılmasında Fondun oynadığı rol artır. Yuxarıda qeyd olunan proqramlara Bakı-Tiflis-Qars dəmiryolunun tikintisinin maliyyələşdirilməsi üzrə xərclərin artması (90 mln. manat) və tələbələrin xaricdə oxumaları üçün dövlət təhsil proqramının maliyyələşdirilməsi əlavə olunur. Bununla yanaşı, qaçqın və məcburi köçkünlərə dəstək üçün əlavə 145 milyon manat, infrastruktur layihələri üçün isə 333 milyon manat (390 mln. dollar) ayrılmışdır.

Bakı-Tiflis-Qars dəmir yolunun çəkilməsi Bakı-Tiflis-Ceyhan layihəsinin davamıdır. Məqsəd budur ki, Ermənistandan yan keçməklə Türkiyə və Azərbaycan arasında dəmir yolu əlaqəsi təmin olunsun. Hazırda mövcud olan dəmir yolu marşrutu Ermənistan ərazisindən keçir və məlum siyasi səbəblərə görə qonşu ölkələr tərəfindən istifadə olunmur.

Nəzərdən keçirdiyimiz icmal araşdırmaya əsasən qeyd etmək olar ki, geniş (monoqrafiya, kitab, dissertasiya) və kiçik həcmli (məqalə, tezis və s.) elmi-tədqiqat əsərlərində, gündəlik və həftəlik dövri mətbuatda Azərbaycan neftinin hasilatı və nəqli ilə bağlı kifayət qədər geniş araşdırmalar aparılmış, təhlillər olunmuş və səmərələşdirici təkliflər verilmişdir.

Xüsusilə qeyd etmək istərdik ki, ölkənin özəl ixrac boru kəmərinə sahib olması onun Rusiyadan asılılığını zəifləmiş və onun regional enerji layihələrinə qoşulmasına şərait yaratmışdır. Nəticədə belə bir perspektiv meydana çıxmışdır ki, ölkə Orta Asiya neftinin və qazının nəqli üçün tranzit ərazisi kimi istifadə oluna bilər ("Nabukko" layihəsi).

### *MƏNBƏLƏR VƏ ƏDƏBIYYAT*

1.Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995, II fəsil, 11-ci maddə, II yarımmaddə.
2.Əliyev İlham. Azərbaycanın neft diplomatiyası (1994-cü ildən başlayaraq). Tammətnli elektron materiallar məcmuəsi. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Kitabxanası. 3 hissədə. Bakı, 2005.
3.Əliyev İlham. Azərbaycanın neft diplomatiyası. Biblioqrafik göstərici. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Kitabxanası. Bakı, 2004.
4.Əliyev İ., Muradverdiyev A. Azərbaycan nefti dünya siyasətində. IV kitab. Bakı, «Azərbaycan» nəşriyyatı, 1997. 264 s.
5.Həsənov S.S. Dövlətlərarası münasibətlərdə Xəzərin statusu məsələsi. Bakı, Elm, 2002, 176 s.
6.Ümummilli lider Heydər Əliyevin neft strategiyası. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Kitabxanası. 5 hissədə tammətnli elektron materiallar məcmuəsi.
7.Tağıyev C.O. XX əsrin sonu– XXI əsrin əvvəllərində Azərbaycan nefti və neft kəmərləri. Namizədlik dissertasiyası. Bakı, 2003, 179 s.
8.Tağıyev C.O. XX əsrin sonu– XXI əsrin əvvəllərində Azərbaycan nefti və neft kəmərləri. Namizədlik dissertasiyasının avtoreferatı. Bakı, 2003, 26 s.
9.Heradstveit D. Democracy and oil. The case of Azerbaijan. NUPI (The Norwegian Institute of International Affairs) // http://www.kitabxana.org/site/?name=view&page=1&id=276
10. "The contract of the century" 10 years. Baku, 2004.
11.ttp://www.azerbaijan.az/_Economy/_GeneralInfo/_generalInfo_a.html
12.Алиев И. Каспийская нефть Азербайджана. М.: Известия, 2003. – 712 с.
13.Герасимов М. "Россія" - Нефтяной блеф Азербайджана. Что потечет по... пустой трубе? // http://www.centrasia.ru/newsA.php?st=1074841560 - 23.01.2004.
14.Керимов К.М. Большая нефть Азербайджана: проблемы и суждения.- Баку: Ozan, 2008.- 631 с.
15.Курбанов Р.А. Правовое регулирование иностранных инвестиций в нефтяной и газовой промышленности: Дис. ... д-ра юрид. наук: - Москва, 2005, 457 с. РГБ ОД.
16.Мурадвердиев А.Ш. Экономическое обоснование эффективного развития нефтяного комплекса Азербайджана: диссертация ... доктора экономических наук. - Москва, 2001. - 206 с. РГБ ОД.
17.Петров М. Иностранные нефтяные компании в Азербайджане. Контракт века: трезвый расчет против амбиций // Огонёк, 1996, №52; habelə bax:
http://www.ogoniok.com/archive/1996/4450-2/99-22-25/
18.Романова Л. Баку обыграл Москву. "Большая нефть" Азербайджана, вероятно, пойдет в обход России // Независимая газета. 1999, 10 ноября;
http://www.ng.ru/cis/1999-11-10/5_baku.html
19.Султанов Ч. Нефтегазовая стратегия и полтика в XXI веке. Баку, 2008, 703 с., 92 ил.

**АЙТЕН МАГЕРРАМОВА**
***АГПУ***

### ОБ ИСТОРИОГРАФИИ НЕФТЕГАЗОВОЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

В настоящей работе рассмотрена и изучена история нефтегазовой промышленности в Азербайджанской Республике, одновременно научно-исследовательские произведения, диссертации, монографии, дневники и еженедельные периодические материалы прессы широкого и малого объема, посвященные этой отрасли.

**AYTEN MAHERRAMOVA**
***ASPU***

### ABOUT HISTORICAL SCIENCES OF OIL AND GAS INDUSTRY OF AZERBAIJAN REPUBLIC

Development history of oil and gas industry of Azerbaijan Republic, scientific research works, dissertations, monographs, daily and weekly periodic press pages of broad and brief capacity were investigated and analysis about them were done.

***Rəyçilər: t.e.n.Ə.Əhmədov, t.e.d.A.C.İsgəndərov.***
***ADPU-nun Ümumi tarix kafedrasının 18 fevral 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №11).***